"Bank Avrasiya" öz plastik kart sahiblərinə yeni "PIN-Change" xidmətini təklif edir. "PIN-Change" xidməti plastik kart sahiblərinin rahatlığı üçün nəzərdə tutulub. Müştəri bu xidmətdən istifadə edərək, öz plastik kartının PIN kodunu istənilən, onun üçün asan yadda qalan 4 rəqəmli kod ilə əvəz edə bilər. "PIN-Change" xidmətindən istifadə haqqı 2 manat təşkil edir.

"PIN-Change" xidmətindən istifadə etmək üçün "Bank Avrasiya"nın plastik kart sahibi bankomat vasitəsilə aşağıda sadalanan mərhələləri həyata keçirməlidir:

1. Plastik kart bankomata daxil olunur;
2. Dil seçimi aparılır;
3. Kartın kodu yığılır;
4. "Ödəmələr" punktu seçilir;
5. "Xidmətlər" bölməsinə keçid alınır;
6. "PIN-Change" xidməti seçilir;
7. Yeni 4 rəqəmli kod yığılır, "ENTER" düyməsi basılır;
8. Yeni kod təkrarən yığılır və "ENTER" düyməsi basılır.